21. Laborant kabinet müdirinin rəhbərliyi ilə tədris proqramında nəzərdə tutulmuş laboratoriya və praktiki işlər üçün lazım olan avadanlığı, cihaz və alətləri, reaktivləri seçir və onları məşğələ üçün hazırlayır.

22. Tədris kabinetinin və laboratoriyanın işinə ümumi rəhbərlik və nəzarət tədris-istehsalat işləri üzrə direktor müavini, habelə tədris hissə müdiri tərəfindən həyata keçirilir.

23. Tədris kabinetinin müdirinə müəyyən olunmuş qaydada əlavə əmək haqqı verilir.

24. Tədris kabineti və laboratoriyasının təchizi, tərtibatı və işinin vəziyyəti təhsil müəssisəsinin pedaqoji şurasının və metodiki komissiyalarının iclaslarında vaxtaşırı müzakirə edilir, onların tədris-maddi bazasının möhkəmləndirilməsi üçün konkret qərarlar qəbul olunur, əməli tədbirlər hazırlanır və həyata keçirilir.



## PEŞƏ MƏKTƏBİ VƏ PEŞƏ LİTSEYİ ŞAGİRDLƏRİNİN MƏRHƏLƏLİ ATTESTASİYADAN KEÇİRİLMƏSİ VƏ ONLARA İXTİSAS DƏRƏCƏSİNİN VERİLMƏSİ QAYDASI HAQQINDA ƏSASNAMƏ

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 15.03.2000-ci il marixli 250 №-li əmri ilə məsdiq edilmişdir.*

1. Mərhələli attestasiya təlimin və məhsuldar əməyin səmərəliliyinin, şagirdlərin peşə hazırlığı səviyyəsinin yüksəldilməsi, tədrisin keyfiyyəti, tədris və əmək intizamına riayət edilməsi üçün onların məsuliyyətinin artırılması məqsədilə keçirilir.

2. Şagirdlərin mərhələli attestasiyası, bir qayda olaraq, tədrisin birinci ilinin sonundan başlayaraq yarım ildə bir dəfə peşə məktəbi və peşə litseylərinin tədris-istehsalat emalatxanalarında, laboratoriyalarında, təlim təsərrüfatlarında və poliqonlarında, şərait olmadıqda isə şagirdlərin tə-lim (təcrübə) keçdikləri müəssisə və təşkilatlarda keçirilir.

Şəraitin və peşənin xüsusiyyətindən asılı olaraq attestasiyanın ildə bir dəfə keçirilməsinə icazə verilir.

Şagirdlərin attestasiyası komissiya tərəfindən istehsalat təliminə ayrılan vaxt hesabına (6 saat) aparılır.

Attestasiyada iştirak etməyən və yaxud hər hansı bir səbəbə görə attestasiyadan keçməyən şagird məktəb (litsey) rəhbərliyi tərəfindən təyin edilmiş vaxtda təkrar attestasi-yaya buraxıla bilər.

3. Mərhələli attestasiyanın məzmunu şagirdlər tərəfindən istehsalat təlimi proqramında nəzərdə tutulmuş yox-lama işlərinin sərbəst yerinə yetirilməsi, işin keyfiyyətinin qiymətləndirilməsi, komissiyanın iclasında müsahibə apar-maq, onlara bu və ya digər iş növünü və əməliyyatı yerinə yetirməyi tapşırmaq yolu ilə şagirdlərin bilik, baca-

rıq və praktiki vərdişlərinin faktiki səviyyəsini müəyyən etməkdən ibarətdir. Attestasiya zamanı şagirdlərin istehsalat təlimi, ümumtexniki və ixtisas fənləri üzrə cari qiymətləri nəzərə alınır.

4. Şagirdlərin mərhələli attestasiyasını keçirmək üçün onun işininn başlanmasına ən azı 10 gün qalmış tədris-istehsalat işləri üzrə direktor müavininin və yaxud baş ustanın rəhbərliyi ilə komissiya yaradılır. Komissiyanın tərkibinə istehsalat təlimi ustaları, ümumtexniki və ixtisas fənn müəllimləri, digər mühəndis-pedaqoji işçilər, iş verənlərin mütəxəssisləri və məktəbin (litsey) ictimai təşkilatlarının nümayəndələri daxil edilir. Zəruri hallarda bir neçə attestasiya komissiyasının yaradılmasına icazə verilir. Attestasiya komissiyasının üzvlərinə əlavə əmək haqqı verilmir.

5. Şagirdlərin mərhələli attestasiyası tələbkarlıq, prinsipiallıq, obyektiv və xeyirxahlıq şəraitində keçirilir.

Attestasiyanın yekunlarına görə şagirdlərə bir və bir neçə peşə üzrə layiq olduğu ixtisas dərəcəsi (sinif, kateqo-riya) verilə bilər. İxtisas dərəcəsinin verilməsi mümkün ol-mayan peşələr üzrə isə şagirdlərə dövlət buraxılış imtahan-larında nəzərə alınan qiymət və ya zaçot yazılır. Dərəcə və kateqoriyalar peşə xarakteristikası və tədris proqramlarının tələblərinə ciddi riayət olunmaqla verilir.

Attestasiyanın nəticələri istehsalat təliminin uçotu jurnalının 6 №-li formasına köçürülür və komissiyanın üzvləri tərəfindən imza edilir. Bu barədə hər bir şagirdə məlumat verilir, peşə məktəbi və peşə litseyinin pedaqoji kollektivinin nəzərinə çatdırılır.

6. Komissiya attestasiyanın nəticələrinə əsasən məktəbin (litsey) pedaqoji şurasına müvafiq təkliflər hazırlayır.

Attestasiyanın yekunlarının təhlili əsasında peşə ha-zırlığı keyfiyyətinin yaxşılaşdırılması, istehsalat təlimi, ümumtexniki, ixtisas və digər fənlər üzrə şagirdlərin bilik, bacarıq və vərdişlərində aşkar edilən qüsurların aradan qal-



dırılması sahəsində tədbirlər müəyyənləşdirilir və həyata keçirilir.

7. Mərhələli attestasiyadan müvəffəqiyyətlə keçən və müvafiq ixtisas dərəcəsi alan şagirdlərə, zəruri hallarda peşə üzrə layiq olduqları ixtisas dərəcəsi göstərilməklə arayış ve-rilə bilər.